Hələ orta məktəbdə Cəlil Məmmədquluzadənin «Ölülər» faciəsini öyrənərkən belə bir əhvalatın baş verə bilməsinə inanmamışdım. «Ölülər»dəki Şeyx Nəsrullah ölüləri dirildəcəyinə cəmiyyətin öncülləri sayılan hacıları, kərbəlayıları, məşədiləri, hətta xaricdə təhsil almış əli bəyləri inandıra bilmişdi. Təkcə kefli İskəndərdən başqa hamı inanırdı. Şeyx Nəsrullahın möcüzəsinə. Kefli İsgəndərə isə heç kəs inanmırdı. Çünki o kefli idi. Heç kəsi doğruya inandıra bilmədiyinə, cahalətlə mübarizədə tək və aciz olduğuna görə «kefli» idi İsgəndər.

Başına və üzünə yaqin ki, heç vaxt ülgüc dəyməmişdi. Üzü tüklü olsa da saçları çiyinlərindən aşağı tökülürdü. Bu məxlüq iddia edirdi ki, Azərbaycanda çox sayda lənətlənmiş mülk, ərazi və sair var. Onun və məsləkdaşlarının peşəsi həmin mülkləri lənətdən təmizləməkdir. Həm də Allahdan qorxmadan, həya etmədən bunu islam dini ilə əlaqələndirməyə çalışırdı. Fəaliyyətinin istiqaməti, azacıq fərqli olsa da məqsədi Şeyx Nəsrullahın əməlinə düz gəlirdi bu məxluqun. Onun dediyindən belə çıxırdı ki, lənətlənmiş malikanələr əsasən bahalı malikanələrdir ki, onların sahibləri böyük məbləğlər sərf eldərək mülklərini lənətdən təmizlətdirirlər ki, həmin mülklərdə rahat qəzavü-qədərdən sığortalanmış, xoşbəxt həyat sürsünlər. Bu müasir, ancaq başqa qiyafədə zühur etmiş Şeyx Nəsrullahın sözlərinə görə onların siyahı və dolanışıq sarıdan heç bir problemi yoxdur. Ona və həmkar yoldaşlarına hər gün çox sayda müraciət daxil olur. Onlar da malikanələrin dəyərinə uyğun qiymətlə bu müracətləri icra edirlər. Xaricdə yaşayan çoxmilyonlu azərbaycanlı tamaşaçılarını çıxsaq belə 9 milyonluq aidutoriyanın qarşısında bu cəfəngiyyatı söyləmək insanları cəhalətə sürükləməkdir.

# Müasir cəhalətpərəstlər

O vaxt Şeyx Nəsrullahın ölü diriltmə əməliyyatı yarımçıq qaldı. Belə ki, ölü yiyələrinin təqsiri ucundan «kişi» bu xeyirxah əməlini tamamlaya bilmədi. Ölü yiyələri biabırçılıqların üstünün açılmasından qorxaraq Şeyx Nəsrullaha diriləcək ölülərin siyahısını təqdim etməkdən çəkindilər. Yazıq Şeyx də dəqiq siyahıya malik olmadığından ölüləri dirildə bilmədi. Ancaq, diri ölülərin sayəsində əsas məqsədlərini həyata keçirdi Şeyx Nəsrullah.

Əsəri oxuyarkən düşünürdüm ki, normal adamın illər öncə ölmüş insanın dirilməsinə inanması mümkün deyil. Düşünürdüm ki, bu və azacıq da olsa buna bənzər hadisə baş verə bilməz. Ancaq...

Bəzi kütləvi informasiya vasitələrində, xüsusən televiziya kanalları vasitəsilə yayılan xəbərləri, verilişləri izlədikdə, ətrafımızda baş verən hadisələrin şahidi oluqda məətəl qalırsan. Mirzə Cəlilin qələmə aldığı Şeyx Nəsrullah dövründən150 il keçəndən sonra Şeyxin sələflərinin yağışdan sonrakı köbələk kimi hər tərəfdən pırtlayıb çıxması və bəzi insanların, onlara inanması dərin təəssüf və təəcüb doğur.

Budur, onlardan biri. Çox izlənən televiziya şou proqramlarının birində mötəbər yerdə əyləşib. Mən onun qiyafəsini təsvir etməyəcəyəm.

Maraqlıdır ki, həmin şou proqramda dindarların və ziyalıların nümayəndələri də iştirak edirdi. «Dindar» əvvəlcə bu fırıldaqçıya Qurandan və həzrət Peyğəmbərin hədislərindən misal gətirməklə, qəzavü qədərin mövcudluğu barədə danışmaqla müqavimət göstərmək istəsə də sonda onun səviyyəsinə yuvarlandı.

Ziyalıların nümayəndələri susurdu. Hiss olunurdu ki, onlar da fürsətdən istifadə edib tanışlıqla mənzillərini sərfəli qiymətə lənətdən təmizlətmək barədə düşünürdülər. Allah sənə rəhmət eləsin, Mirzə Cəlil!!!

**Qüdrət SƏMƏDOV.**

**REDAKSİYADAN:** ***Bu yazı nəşrə hazırlanarkən yuxarıda bəhs etdiyimiz müasir Şeyx Nəsrullah «Cənnət parapsixologiya mərkəzi» MMC-nin direktoru özünü həzrət Sabir kimi təqdim edən Sabir Abbasov DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən cinayət başında saxlanılıb.***

***O, hüquqa zidd əməlləri müqabilində mərkəzə müraciət edən vətəndaşlardan dələduzlüq yolu ilə külli miqdarda pul almaqda təqsirləndirilir.***

***Ümidvarıq ki, bu hadisə din adından dələduzluq edən şeyx nəsrullahlara inananlara bir dərs olar.***

# Əmlak vergisinə edilmiş dəyişikliklər barədə

Əmlak vergisi üzrə Vergi Məcəlləsinin 198.1.1, 199.4.3, 200.1 və 200.2-ci maddələrinə dəyişikliklik edilib.

Belə ki, fiziki şəxslər 01.01.2015-ci il tarixindən etibarən binaların inventar dəyərinə görə deyil, binaların sahəsinin hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunmaqla əmlak vergisini ödəməlidir.

Yaşayış sahəsi 30 m2 -dən aşağı olduqda vergi hesablanmır.

Bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə Nazirlər Kabinetinin müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq ediləcəkdir.



**Misal**

**1. Bakı şəhərində (Nazirlər Kabinetinin müəyyən etdiyi əmsalı şərti olaraq 1,1 qəbul edək) fiziki şəxsin mülkiyyətində 60 m2 sahəsi olan yaşayış evi mövcuddur. Evə görə əmlak vergisi aşağıdakı qayda ilə hesablanır:**

(60 m2 - 30 m2) x 0,4 manat x 1,1 = 13,2 manat

**2. Sumqayıt şəhərində fiziki şəxsin mülkiyyətində 85 m2 sahəsi olan mənzili və sahibkarlıq məqsədi üçün istifadə etdiyi 25 m2 sahəsi olan obyekti vardır. Bu halda əmlak vergisi aşağıdakı qaydada hesablanacaq:**

($85 m^2$ - $30 m^2$) x 0,3 manat = 16,5 manat

$25 m^2$ x 0,3 manat = 7,5 manat

Cəmi: 16,5 manat + 7,5 manat = 24 manat

| Yaşayış məntəqələri | Fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri | |
|---|---|---|
| | Dəyişiklikdən əvvəl | Dəyişiklikdən sonra |
| Bakı | xüsusi mülkiyyətdə olan binaların inventarlaşdırılmış dəyəri 5000 manatadək olduqda vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən 0,1 faiz | 1 m2- 0,4 manat |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | | 1 m2- 0,3 manat |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | | 1 m2- 0,2 manat |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | | 1 m2- 0,1 manat |

# Müdrik deyimlər

gFikirləşmək insana üç böyüklük bəxş edir: yaxşı görmək, yaxşı danışmaq və yaxşı hərəkət etmək.

**Demokrit.**

gHər insan sirdaş ola bilməz, hər kuzə su daşımaz.

**Nasir Hüsrev.**

gÖzünüzdən ən yaxşısını versəniz digər insanlardan da ən yaxşısını alarsınız.

**Hanvey Firelson.**

gTənqiddən qorxursansa bir söz demə, heç nə etmə, heç bir şey alma.

**Albert Hubbard.**

gCümlələr doğrudur sən
doğrusansa,
Doğruluq tapılmaz sən
əyrisənsə.

**Yunus Əmrə.**

gDünyada dəyişiklik etmədə uğur qazananlar, dəyişikliyə özlərindən başlayanlardır.

**Bernard Şou.**

gMəşhur olmaq istəyilə alışıb-yanana doğruluq nəsib olmaz.

**İbrahim bin Ədhəm.**

gÜç gün səhər tezdən qalxan (oyanan), bir gün qazanar.

**Atalar sözü**

gÖlümü xatırlamaq hirs atəşini söndürər.

**Həsən Bəsri.**

gTəbəssüm əmniyyətin açarı, insanın çırağıdır.

**Hz. Əbu bəkr.**

gUzun bir müharibə hər iki tərəfin də haqsız olduğunun göstəricisidir.

**Volter.**

gCünahkar deyə qardaşını tərk etmə, bəlkə sabah o da günahını tərk edər.

**İbrahim Nəsdi.**

gKitab arzular doğurur və onları yaşadır. Kitab insanı düşünməyə sövq edir, ona müstəqil fikir yürütməyi öyrədir.

**Topladı N. ATAKİŞİYEV.**

## ALLAH RƏHMƏT ELƏSİN

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının aparat işçiləri, partiyanın sədri **Abil Ağasəfova**, əmisi

**CƏLİL AĞAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Bum qəsəbəsindən Rəşidovlar ailəsi Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini, general-leytenant **Ragim Lətifova**, atası

**ƏHƏD LƏTİFOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ rayoln Təhsil Şöbəsinin kollektivi iş yoldaşları **Şəlalə Zəkəriyyəyevaya**, ezizi

**SƏİDƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının kollektivi iş yoldaşları **Xatirə Əfəndiyevaya**, əzizləri

**MURAD VƏ NƏRMİNİN**

faciəli vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.